*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 488-494*
https://doi.org/10.59849/2224-9257.2024.1.488

**XANKİŞİYEVA ZƏHRA ƏLİBƏY**
**Azərbaycan Dillər Universiteti**
**Rəşid Behbudov.134**
**zara-zara-1986@mail.ru**

# ROULİNQ BƏDİİ PORTRET YARADICISI KİMİ

**Xülasə**

Məlumdur ki, ingilis yazıçısı C.K.Roulinq bütün dünyada milyonlarla uşağın və böyüklərin qəlbini fəth etmiş müəllifdir. Gənclərin fenomeninə çevrilən sehrbaz Harrinin sərgüzəştləri haqqında romanlar silsiləsinin yaradıcısıdır. Onun yaratdığı bu romanlar heptalogiyası bəşəriyyət tarixində ən çox oxunan kitablardan birinə çevrildi.

Məqalədə müasir ingilis yazıçısı, xüsusi ilə də "Harri Potter" romanlar silsiləsinin müəllifinin yaradıcılıq portreti araşdırılır. Ədibin romanlar silsiləsində Şotlandiya və Şotland həyatının özünəxas özəlliklərinin təsvirinə istinadən belə bir nəticəyə gəlmək olar ki, onun Şotlandiya və Şotlandlarla genetik bağlılığı vardır.

C.K.Roulinq əsərlərini yaradarkən Şotlandiyanın tarixi və Şotlandların etnogenezi haqqında traktat və elmi araşdırmalardan bəhrələnmişdir.

Bu cür yanaşma da şübhəsiz ki, onun yaradıcılıq portretinə təsir göstərmişdir.

Eyni zamanda "Harri Potter" heptalogiyasında janr sinkretikliyinə də rast gəlinir. Bunlardan ən əsası fentezi, sehrli nağıl və bildunqs roman janrları romanda xüsusilə ön plana çəkilmişdir. Romandaki bu janr növlərinin xüsusiyyətlərinin qarışığı onun oxucu kütləsi ilə uğur qazanmasına təsir göstərmişdir.

C.K.Roulinqin yaradıcılığı müasir ingilis ədəbiyyatının diqqətəlayiq hadisəsinə çevrilməklə yanaşı, həm də müasir nəslin mədəniyyətinə mütaliəyə məhəbbət aşılamaq, onun müasir tərzdə tərbiyə olunmasına mühüm töhfə verib.

***Açar sözlər:*** *Harri Potter, bədii portret, obraz, bədii yaradıcılıq, janr.*

Britaniyanın müasir və ən məşhur uşaq yazıçılarından biri Coan Ketlin Roulinqin yeddi kitabdan ibarət olan "Harri Potter" romanlar silsiləsi çağdaş dövrün ən oxunaqlı əsərləri sırasına daxil olmuşdur. Qeyd edək ki, 1997-ci ildən 2007-ci ilədək ayrı-ayrı illərdə "Harri Potter" silsiləsinə daxil olan romanlar nəşr edilmişdir. Ədəbi aləmdə C.K.Roulinq (J.K.Rowling), eyni zamanda Robert Qalbreyt (Robert Galbraith) təxəllüsü ilə tanınır. Bugün dünya şöhrətli ədib yaratdığı əsərlərinə görə böyük qazanc əldə edərək multimilyonçu statusunu qazanmışdır. Məqalədə məqsədimiz müasir ingilis yazıçısının bədii portretini araşdırmaqdır.Bədii portretin vəzifəsi ( təsviri nə olursa, olsun: müfəssəl və ya qısa) bütöv bədii obraz yaratmaqdır, onsuz bədii mətni tam təsəvvür etmək mümkün deyil. Təfərrüat, ifadəli və detallı

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2024
Səh. 488-494
https://doi.org/10.59849/2224-9257.2024.1.488

təsvir ədəbi portreti yaratmağa kömək edir, bunun sayəsində də mətn xüsusi "şəkil" (obraz) keyfiyyətini qazanır. Öncə, "bədii portret" termininin şərhini vermək vacib hesab edirik, çünki bu anlayışla bağlı ədəbiyyat nəzəriyyəsində qeyri-müəyyənlik, hətta ikili yanaşma da mövcuddur. Bədii lüğətlər və ensiklopediyalar ilk növbədə şərhi bədii personajın zahiri görünüşü kimi verir, hansı ki müəyyən dərəcədə onun xarakterinin bəzi xüsusiyyətlərindən xəbər verir. Bu məna, qeyd edildiyi kimi, ədəbi ensiklopediyalarda birincidir.

Bədii portret janrının nəzəriyyəsinin müəllifləri vurğulamışlar ki, bədii portretin mahiyyəti təsvir olunan yazıçının yaradıcılığının onun şəxsi xarakteri ilə bağlı vahid təsviridir. Adətən bu janrda olan əsər müəllifin şəxsən yaxşı tanıdığı, təsvir olunan şəxsin adı ilə əlaqələndirilir.

Kütləvi ədəbiyyatın inkişafında xidmətləri ilə seçilən xanım yazıçının "Harri Potter" romanlar silsiləsi dünyanın 70-dən çox xalqının dillərinə tərcümə edilmişdir. Statistik məlumatlarda adını qeyd etdiyimiz romanın 500 milyondan çox nüsxələrdə çap olunduğu da qeyd edilir.

C.K.Roulinq üç dəfə "Nestle Smarties Gold Award", "British Book Awards" adlı mükafatlara layiq görülmüş, iki dəfə "Children's Book Award" ın qalibi olmuş, Asturiyalı şahzadənin ispan mükafatı, 2000-ci ildə Britaniya imperiyasının ordeni ilə təltif olunmuşdur. Yazıçı eyni zamanda dünya şöhrətli uşaq nağıl yazarı Hans Andersen mükafatını almışdır.

Birinci kitabdan altıncı kitaba qədər hər bir cildində Harri Potterin Hoqvartsda keçirdiyi (magik məktəbdə) müvafiq ilin biri haqqında söhbət açılır.Yeddinci cild isə, Harri Potter və onun dostları ilə birlikdə sehrbaz Volan-de Mortla sonuncu döyüşün strategiyasının qurulmasına həsr olunmuşdur.

Bir qayda olaraq bədii əsərdə müəllif dünyası ilə onun yaratdığı qəhrəman obrazının dünyası vəhdət təşkil edir. Adlarını qeyd etdiyimiz əsərlər C.K.Roulinqin uşaq fentezisi janrında yazdığı bildunqs roman əsərləri kimi səciyyələndirilir. Yazıçının o qədər də geniş yertutmayan təsvirlərində dialoqların, mətnlərin, tərbiyəedici istiqaməti, uşaqların yaş səviyyəsinə uyğun söz seçimi, maqnetizmi ilə seçilən "Harri Potter" romanlar silsiləsi son dövr Britaniya uşaq ədəbiyyatının ən böyük nailiyyətlərindən biri hesab olunur.

Bu silsilə romanları ədəbi sehrli nağıl janrına aid edilməsi heç də təsadüfi deyildir. Bəzi tədqiqatçılar "Harri Potter" romanının bir neçə janr xüsusiyyətləri" adlı araşdırmalarında qeyd edirlər ki: faktiki olaraq C.K.Roulinq bir əsər çərçivəsində iki mümkün dünyanı yaradır: onlardan biri real dünyanı xatırladır, ikincisi isə sehrli dünyadır. "Harri Potter" fentezi əsəri sehrli nağılların və mifin sintezidir [9].

C.K.Roulinqin "Harri Potter" romanları silsiləsində sehrli bir dünyaya səyahətə çıxan oxucu sanki bu dünyanın aludəçisinə çevrilir. Həmin dünya sehrli əşyalar, dəyişən animaquslar vücudlar və qeyri-adi adlarla tanınan məxluqlar oxucu diqqətinə çatdırılmışdır.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 488-494*
https://doi.org/10.59849/2224-9257.2024.1.488

C.R.R.Tolkinin məşhur bir mühakiməsində deyilir ki: "*I do not love the bright sword for its sharpness, nor the arrow for its swiftness, nor the warrior for his glory. I love only that which they defend*"[11]

"Mən par-par yanan qılıncı onun iti olmasına, və ya oxu onun sürətinə, eləcə də döyüşçünü onun şan-şöhrətinə görə sevmirəm. Mən yalnız onların müdafiə etdiklərini sevirəm. "[11]

C.K.Roulinqin Britaniya ədəbiyyatına verdiyi töhfə ədəbiyyatın müasir güzgüsündə və hər bir kəsin ürəyində aydınlığı ilə öz əksini tapmışdır. Bu baxımdan qeyd edək ki, o, müasir dövrdə kütləvi ədəbiyyatın ön cərgəsində gedən ədibdir və onun yaratdığı "Harri Potter" silsilə romanları indiki günlərimizdə dünyanın düşündürücü məqamlarını maraqlı üslub təhkiyədə oxucu diqqətini özünə ram edən maraqlı hekayələr toplusudur.

C.K.Roulinqin uşaq ədəbiyyatında mövqeyini və onun yaradıcılıq portretində xüsusi yer tutan uşaq ədəbiyyatı məsələlərini araşdırarkən onun uşaqlığı, yaradıcılıq yolu haqqında aşağıdakı məqamlara diqqət yetirməyi məqsədəuyğun hesab edirik.

31 iyul 1965-ci ildə Bristolun şimal-şərqindən on mil məsafədə olan Yeyt şəhərində göz açan Roulinq, uşaqlıq və gənclik illərində oxuduğu əsərlər sırasında irland fentezi romançısı K.S.Lüisin uşaqlar üçün yazdığı ən məşhur fentezi janrında "Narniya xronikası", eləcə də Amerika yazıçısı Eylin Qudjun "Ağ madyan" adlı əsərlərinin rolu və əhəmiyyəti olduğu söylənilir. Hər iki povestdə elə bir portal vardır ki, əsərlərin baş qəhrəmanları bu portalda fantastik dünyaya düşür, bu dünyanın sehr-cazibəsindən çıxa bilmir.

K.S.Lüisin "Narniyanın salnamələri"ndə çoxsaylı mifik və nağıl vücudlarına, o cümlədən elflərə, kentavrlara, nimflərə, nəhənglərə, cadugərlərə və başqalarına rast gəlirik. Bu kimi obrazlar C.K.Roulinqin "Harri Potter" romanlar silsiləsində də bədii əksini tapmışdır. "Narniyanın salnamələri" adlı nağıl povestlərinin qəhrəmanı olan Narniyanı əbədi qış dünyasına aparan Ağ Cadugər obrazının C.K.Roulinqin "Harri Potter" ində müəyyən paralelləri aparmaq mümkündür.

C.K.Roulinqin əsərləri ilə tanış olan oxucular adətən yazıçının "Harri Potter" silsilə romanlarını "uşaqlığın bir hissəsi", " yaxud ən çox sevilən uşaq romanı" olduğunu açıq etiraf edirlər. Əlbəttə, bütün bunların arxasında yazıçının bədii yaradıcılıq portretinin xüsusiyyətləri, yaratdığı obrazlar, mətnin üslubu, dialoqlar, romanın qəhrəmanlarının nitqində bədii üslubi vasitələr, çalarlar təsvir etdiyi hadisələrlə bağlı oxucunun gözləri qarşısında yaratdığı rəngarəng, semiotik özəlliyi ilə seçilən həyati lövhələr sənətkarlıqla qələmə alınmışdır. Romanın təhkiyəsinin lakonikliyi, təsvirlərin zəngin dil və işlək ifadələrin ürəyəyatımlığı C.K.Roulinqin uşaq ədəbiyyatında nüfuzlu mövqeyi haqqında aydın təsəvvür yaradır.

Qərb, eləcə də rus ədəbiyyatşünaslığında C.K.Roulinqin Harri Potter adlı romanlar silsiləsinin elmi tədqiqat işlərinin, dissertasiyaların predmetinə çevirilməsi ədibin yaradıcılıq emalatxanasında tədqiqat üçün kifayət qədər materialların

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2024
Səh. 488-494
https://doi.org/10.59849/2224-9257.2024.1.488
olduğundan xəbər verir. C.K.Roulinqin Harri Potter romanlarının aşağıdakı adlara layiq bilinməsi də ədibin müasir uşaq nəsrində tanınmış yazıçılardan biri olduğunu təsdiq edir ədəbi tənqid onun əsərlərini "çoxcildli epopeya", "müasir dünya ədəbiyyatında hadisə", " sehrli nağıl", " yaxşı ədəbiyyatı dəyərləndirən hər bir kəs üçün yazılmış kitablar, "yeniyetmələr üçün fentezi janrında multimedia ensiklopediyası", "bütün zamanların möhtəşəm saqası", "minilliyin ən gözəl nağılı" kimi dəyərləndirmişdir[10].

İngilis uşaq ədəbiyyatı sahəsində xidməti olan yazıçı C.K.Roulinqin əsərlərinin Azərbaycan ədəbiyyatşünaslığında yeri haqqında qeyd etmək lazımdır ki, "Harri Potter və sirlər otağı", "Harri Potter və alov qədəhi", " Harri Potter və fəlsəfə daşı", " Harri Potter və Simurq ordeni", "Harri Potter və Yarımqan Prins" kitabları müxtəlif illərdə "Qanun nəşriyyatı"n da nəşr olunmuşdur.

İxtisasca hüquqşünas olan yazıçı Vahid Məmmədovun "Atropatena" adlı romanı Azərbaycan ədəbiyyatında ilk fentezi romanı kimi qeyd olunur. Yazıçının istedad və təxəyyülünün məhsulu olan əsərlər yaşından asılı olmayaraq oxucu mühakiməsinə verilir. Dünya uşaq ədəbiyyatının nümayəndələrinin milli dilə tərcümə olunan əsərləri milli uşaq ədəbiyyatının daha da zənginləşməsinə, əlçatan olmasına və inkişafına müəyyən təsirini göstərir.

Azərbaycanın elmi-ədəbi mühitində müasir Azərbaycan yazıçıları ilə dünyanın, o cümlədən Qərb ölkələri ədəbiyyatının tanınmış yazıçıları arasında müəyyən paralellərin aparılması əslində ədəbiyyatın daha yaxın dərkində vacib və aktual məsələdir. Dünyanın bir sıra universitetlərində müqayisəli ədəbiyyat kafedralarının komparavistika aspektində görülən işləri ədəbiyyatların əlaqələrinin öyrənilməsinə xidmət edir. ABŞ-da fəaliyyət göstərən Müqayisəlli Ədəbiyyat İnstitutunun fəaliyyəti də məhz ədəbiyyatlararası əlaqələrin öyrənilib tədqiq olunması ilə bağlıdır.

Bu da danılmaz bir faktdır ki, C.K.Roulinqin Harri Potterə həsr etdiyi yeddi kitabının hər birində Şotlandiyanın mühiti, həyatının müəyyən lövhə və izlərini görmək mümkündür. Araşdırıcıların bir qismi C.K.Roulinqin Şotlandiya ilə bağlılığı məsələsinə toxunaraq onun anasının yarı şotland olduğunu və ulu baba və nənəsinin isə Arran adasında dünyaya göz açdığını qeyd edirlər. Ədibin Şotlandiyanın Edinburq şəhərində məskunlaşması təsadüfi deyil.

Eləcə də C.K.Roulinqin məşhur "Harri Potter" silsiləsində Şotland mühiti ilə bağlantıları barədə ədəbi-bədii fakt və təsvirləri ədibin Şotlandiya ilə genetik bağlılığı haqqında müəyyən təsəvvür yaradır. Araşdırmanın sonrakı hissələrində bu haqda təhlil və şərhlərin verilməsi nəzərdə tutulmuşdur. [14]

Sistemli psixoanaliz nöqteyi nəzərindən deyə bilərik ki, C.K.Roulinqin şəxsiyyəti həyatın ən yüksək dəyərinə söykənir. Ona görə həyatın mənası məhəbbətdədir, sevgi təkcə səmimi deyil, həm də mənəvidir. [15]

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 488-494*
https://doi.org/10.59849/2224-9257.2024.1.488

C.K.Roulinq Hans Xristian Andersen mükafatını alan ilk ingilis uşaq yazıçısıdır. O, sehrli nağıllar ustadının dünyaya gəldiyi Odense şəhərində mükafatlandırılaraq ((500.000 kron) 60.000 funt sterlinq) bu mükafatı yazıçı adına verilən ən böyük mükafatlardan biri kimi hesab etmişdir.[13]

C.K.Roulinq əsərlərinin ədəbi-estetik dəyərləri və onların ədəbi-fəlsəfi dərkinə, eləcə də zəngin yaradıcılığının ayrı-ayrı aspektlərinə dair araşdırmaların aparılması, yaradıcılığının Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsinə yeni istiqamət verir.

Ümumiləşdirərək qeyd etmək lazımdır ki, uşaq ədəbiyyatı üçün ən əsas meyarlardan biri tədqiq olunan problemin milli uşaq ədəbiyyatı nümunələri ilə müqayisəli təhlillərin aparılması xüsusuilə vacibdir. Ədəbi debatlarda bütün dünyada fentezi və antiutopik əsərlərin dəbdə olduğu halda Azərbaycan ədəbiyyatında bu janrlarda əsərlərin yazılmaması ciddi tənqid atəşinə tutulur. Xüsusilə uşaq ədəbiyyatı üçün xarakterik olan fentezinin həm mahiyyətində həm də məzmun-mündəricəsində miflə reallığın vəhdəti dayanır.

## Ədəbiyyat

1.Hacıyev Vəkil Avropanın Nağıl Ustaları //Andersen.Qrim Qardaşları.Hofman. Hauf. Nağıllar. - Bakı: Yazıçı, 1987.- S.3-8. -/Dək.C.34/. Xəlilli Şahin. Nağıllar Səltənətinin Şahzadəsi- Hans Kristian Andersen. Nağıllar. Bakı; “Öndər Nəşriyyat”, 2004, S 4-8; Zümrüd. Dünyanın On Məşhur Qadın Yazıçısı (Coan Roulinq) – “Azərbaycan” Jurnal № 4 2018 187-191s

2.Roulinq. Harri Potter Və Fəlsəfə Daşı.Tərcümə Edəni: Fəxrəddin Ağazadə. Bakı: Qanun Nəşriyyatı, 2013, 436s

3.Xəlilli Şahin. Nağıllar Səltənətinin Şahzadəsi-Andersen Hans Kristian. Nağıllar. Tərcümə Edəni: Mikayıl Rzaquluzadə Bakı; “Öndər Nəşriyyat”, 2004,160s

4.Громова В.В. Феномен Популярности Жанра Фэнтези В Современной Массовой Литературе Для Детей- Вестник Череповецкого Государственного Университета 2012 • № 4 • Т. 1 С 74-77

5.Исторические И Литературные Источники Романов О Гарри Поттере. Авторский Сборник Серия. "Теория И История Культуры" Москва; Инион. Ран, 2007, С.46-55

6.Левко, Е. Н. Динамика волшебного мира Дж. К. Роулинг: автореф. дис. ... канд. филол. наук: 10.02.04 / Е. Н. Левко; Российский гос. пед. ун-т им. А.И. Герцена. - СПб., 2010. - 20 с.

7.Романов В. А. Специфика воплощения детской темы в современном отечественном фэнтези // Вестн. Нижегор. ун-та им. Н. И. Лобачевского. 2014. № 5. С. 130–133.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 488-494*
https://doi.org/10.59849/2224-9257.2024.1.488
8.Смит, Ш. Биография создателя Гарри Поттера Дж.К. Ролинг / Ш. Смит ; пер. А. Мельника. -М. : Астрель : АСТ, 2003. - 314 с.

9.***https://cyberleninka.ru/article/n/istoriya-sozdaniya-i-zhanrovye-osobennosti-geptalogii-dzh-k-rouling-garri-potter/viewer***

10. ***https://fantlab.ru***

11. ***https://www.goodreads.com/quotes/31272-i-do-not-love-the-bright-sword-for-its-sharpness***

12. https://www.sagraphicslk.com/ebooks/free-download-harry-potter-ebooks/

13. https://www.theguardian.com/books/2010/oct/20/jk-rowling-hans-christian-andersen-prize

14. https://www.theguardian.com/books/2017/jun/29/harry-potter-and-the-philosophers-stone-finally-arrives-in-scots-translation

15. https://nataliabaranova.livejournal.com/256995.html

**Захра Ханкишиева Алибек**

## ТВОРЧЕСКИЙ ПОРТРЕТ Дж. К. РОУЛИНГА В ГЕПТАЛОГИИ ГАРРИ ПОТТЕРА

### Резюме

Известно, что английская писательница Дж.К.Роулинг, являющаяся автором гепталогии в мировой литературе, завоевала сердца всех читателей от детей до взрослых. Окунув читателей в чародейство и волшебство и тем самым раскрыв «второй» мир и другое измерение, она стала кумиром и молодежным феноменом.

В данной статье исследуется творческий портрет автора серии романов. Прежде всего раскрывается понятие литературного портрета, который необходим для создания целостного художественного образа и литературной текста. Кроме того, выразительная детализация творческого портрета помогает приобретению особого качества изображения.

В ходе исследования, ссылаясь на описание уникальных особенностей Шотландии и шотландской жизни в серии романов, можно прийти к выводу что она имеет генетическую связь с Шотландией и шотландцами. При создании своих работ Джоан Роулинг использовала трактаты и научные исследования по истории Шотландии и этногенезу шотландцев. Такой подход, несомненно, повлиял на ее творческий портрет.

Затронута также тема жанровый принадлежности романа где используется прием жанрового синкретизма. В произведении особенно выделены жанры фэнтези, волшебной сказки и билдунгсроман. Именно синтез особенностей этих жанров в романе и повлиял на успех у читателей.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 488-494*
https://doi.org/10.59849/2224-9257.2024.1.488

***Ключевые слова:*** *Гарри Поттер, художественный портрет, образ, художественное творчество, жанр.*

**Summary**

**Zahra Khankishiyeva Alibay**

**CREATIVE PORTRAIT OF J.K.ROWLING IN HARRY POTTER HEPTALOGOY.**

It is known that the English writer J. K. Rowling is the author who won the hearts of everyone, from children to adults, in world literature. She is the creator of a series of novels about the adventures of the wizard Harry, which has become a youth phenomenon. She created this hepatology of novels that has become one of the most widely reading books in history of literature.

The article deals with the creative portrait of a modern English writer, the author of the cycle of novels "Harry Potter". The task of a literary portrait (whatever it is: expanded or brief) is to create an integral artistic image, without which it is impossible to imagine a literary text. Detailing an expressive detail, thanks to which the text acquires a special figurative quality, helps to create it.

Turning to the description of the peculiar features of Scotland and Scottish life in the cycle of the writer's novels, we can conclude that she has a genetic connection with Scotland and the Scots.

Creating the works, J.K. Rowling relied on treatises and scientific research on the history of Scotland and the ethnogenesis of the Scots.

This approach undoubtedly influenced her creative portrait.

İn the article author found out syncretism in “Harry Potter” series. Most importantly, the genres of fantasy, fairy tales and bildungsroman stand out in the novel. The synthesis of the features of these genres in the novel influenced its success.

The work of J. K. Rowling has become a remarkable phenomenon in modern English literature and has also made an important contribution to instilling a love of reading in the culture of the modern generation and educating them in a modern way.

***Key words:*** *Harry Potter, artistic portrait, character, artistic creativity, genre.*

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, Məmmədova Samirə Arif**